Noyabrın 6-da AYB-nin Nətavan klubunda filologiya elmləri doktoru, şair-publisist İslam Sadığın "Azərbaycanda kitab mədəniyyəti" ("Renessans-A", 2019) adlı kitabının təqdimatı keçirildi. Tədbirin aparıcısı olan professor Seyfəddin Rzayev əvvəlcə İslam müəllimin Azərbaycan ədəbiyyatında və elmində tutduğu mövqedən onun bir insan kimi dostluqda sədaqətlilik və mərdlik keyfiyyətlərindən söz açdı. Onun özünəxas yaradıcılıq dəst-xəttinə malik olmasından danışıb, sözü müvafiq qayda ilə iştirakçılara verdi.

İlk çıxış edənlərdən biri olan Əlövsət müəllimin dediyi "biz bura vaxt itirməyə yox, nəsə aparmağa gəlmişik" sözləri bir daha onu göstərirdi ki, İ. Sadıq işığına toplaşanlar onun zəkasından bəhrələnməyə gəliblər.

Fizika İnstitutunun şöbə müdiri Qüdrət İsaqov 48 ildir ki, İslam müəllimlə dostluq etdiyindən danışıb, qeyd etdi ki, fiziklərin nöqteyi-nəzərincə alim nəyisə kəşf etməlidir. İslam Sadıq da bu mənada dilçilik və ədəbiyyat istiqamətində mühüm kəşflər etmiş alimdir.

Tarixçi alim Dilavər Əzimli konkret olaraq fikirlərini təqdimat keçirilən kitabın üzərinə yönəltdi. 8 fəsildən ibarət bu kitabın elmi-nəzəri prinsipləri barəsində müfəssəl danışıb bildirdi ki, o, bu əsərində kitabı bizə elə sevdirir ki, sanki adamın gözü qarşısında kitab təzədən yeni bir məna kəsb edir, kitabın nə qədər dərəcədə həyatımız üçün dəyərli olduğunun fərqinə təzədən varmalı elmdəki yolunu bu gün İ.Sadıq uğurla davam etdirir.

Şair Əkbər Qoşalı: - Kitab mədəniyyət: haqda gözəl bir əsəri ortaya qoyub. Özü Koroğluşünas olan bu alim həm də dilimizin, folklorşünaslığımızın tədqiqatçısı kimi sevilən milli ruhlu vətənpərvər ziyalıdır.

Şair-alim Adil Cəmil: - İslam həmişə nə iş görürsə, o sahədə bir ilkə imza atır. Bu baxımdan ona həmişə qibtə etmişəm. Bu gün də o, bu baxımdan bir yeniliyə nail olub və Azərbaycanda kitabşünaslıqla bağlı dəyərli bir əsərə sahiblik edib. Təbrik edir, uğurlar arzulayıram.

Şair Ağacəfər Həsənli:-Baza təhsili kimi əvvəlcə Kənd Təsərrüfatı İnstitutunu bitirəsən, sonra da ixtisasını dəyişib M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirəsən və bu sahədə belə inqilab edəsən, nailiyyətlər qazanasan, bu, çox böyük hünərdir. Bax İslam Sadıq belə bir qətiyyətin sahibidir.

Siyasi elmlər üzrə fəlsəfə doktoru Ruşan Ruşanzadə: - Mən İslam müəllimgildə olmuşam. Böyük, zəngin kitabxanası var. Mən İslam Sadığın sözlərinin və hərəkətlərinin eyni xətdə olduğunu görmüşəm. Hegel ruhun fəlsəfəsi ilə bağlı göstərir ki, insanın ruhu onun hərəkətlərində özünü göstərir. Ancaq hərəkətin ruhu isə onun nitqində təcəlla olunur. "Sivilizasiya Şərqdən və türklərdən başlayır" deyən İslam müəllimin müəllimi və təməli Gədəbəy mühitidir.

# Kitab mədəniyyəti işığında

oluruq. Kitabın redaktoru olan Əlövsət Ağalarov çıxışında İslam Sadığın vaxtilə "Fəryad" qəzetinə qarşı basqıya cavab kimi yazdığı "Fəryadın daşı ağır olur" başlıqlı məqaləsindən söz açdı. Daha sonra dedi ki, biz onu əvvəl şair kimi tanımışıq. O, şairliyin komasından çıxıb, publisistikanın, daha sonra isə alimliyin çığırlarına düşüb. Bu gün onun təqdimatına yığışdığımız "Azərbaycanda kitab mədəniyyəti" kitabı sırf elmi kitabdır, naşirlərin və yaradıcı adamların stolüstü kitabı kimi çox dəyərlidir.

Kitabın buraxılışına məsul şəxs olan Ələddin Əsədov dedi ki, kitabın birinci mərhələsi yazmaq, 2-ci mərhələsi çap etdirmək, 3-cü mərhələ isə təqdimatını keçirməkdir. Müəllifi təbrik edir, uğurlar arzulayıram.

Şair Maşallah Məftun: - Kitabxanaçılıq fakültəsi, redaktorlar üçün çox dəyərli stolüstü kitabdır. Mən İslamı tələbəlikdən milli soykökə bağlı bir insan kimi tanımışam.

Şair Musa Ələkbərli: - İslam döyüşə-döyüşə bu günə kimi yol gəlib, Koroğlu kimi igidliklər göstərib. O, Azərnəşrdə işləyəndən özünü qəhrəman kimi göstərib. İslam özünün haqqı uğrunda da döyüşməyi bacardı. O, bütöv şəxsiyyətdir. Elə bu bütövlüyünə görədir ki, o, bu qədər yaradıcılıq sahələrini – elmi, publisistikanı, poeziyanı və s. bir yerə yığıb uzlaşdıraraq bütövlük yarada bilib.

İlkin Elsevər: - 4 illik tələbəlik həyatımda problemlərimizin yoluna qoyulmasında həmişə öz tövsiyə və məsləhətlərilə bizə çıxış yolu göstərib. Gözəl müəllim, yaxşı insan və gözəl alim kimi İslam müəllimi tələbələri çox sevirdilər.

Professor Yaşar Qasımbəyli: - Mən kitabı birnəfəsə oxusam da, həm də bir az duruxa-duruxa oxudum. Çünki o, elə məsələlərə toxunur ki, istər-istəməz adamı dayanmağa, yaxşı mənada duruxmağa, yəni düşünməyə sövq edir. Oljas Süleymanovun, Əjdər Fərzəlinin

Şair Nazim Əlioğlu: - 1980-ci ildə İslamın "Ulduz"da bir bənd şeiri çıxmışdı, onda onu təbrik etdim. İslam insanlara nur paylayır. O, Moskvada oxuduğu illərdə də ağsaqqal olmağı bacardı.

Füzuli Ramazanoğlu: - İslam Sadıq köhnə kişidir. Böyük insandır. Hər dəfə onun əsərlərini oxuyanda elə bil içimdə bomba partlayır, çünki oxucunu heyrətləndirir...

Fəlsəfə İnstitutunun elmi əməkdaşı Telman Quliyev: - İ.Sadıq şair, alim, publisist və həm də gözəl insandır. O, dağ suyu içib, ona görə də onun ruhu dağ havası kimi safdır...

Tədbirdə alimlərdən, söz adamlarından Sabir Tağıyev, Qalib Sayılov, Tahir Taisoğlu, Əjdər Ol, Tahir Şirvanlı, Natella Asena, tarix üzrə fəlsəfə doktoru, BDU-nun müəllimi Leyla Abasova, şair Kərəm Kürqıraqlı, Aygün Hüseynli, həmçinin İslam Sadığın tələbələrindən – Bakı Avrasiya Universitetinin tələbələri Eltac, Fatimə, Aytac, Avtandil, Turac, Bahar və başqaları çıxış edib İ.Sadıq haqqında xoş fikirlər səsləndirdilər.

Sonda İslam müəllimə söz verildir: - Mənim borcum yazmaq, Mədəniyyət Nazirliyinin borcu çap etmək, təqdimatda iştirak etmək isə sizin borcunuz idi, - deyib çıxış edənlərə və iştirak edənlərə səmimi təşəkkürlərini çatdırdı.



**Şakir** Əlifoğlu